**UOT 371.3**

**MƏCİD İSMİXANOV**
*Bakı Dövlət Universitetinin professoru*
**m.ismixanov@mail.ru**

**NƏZAKƏT İMAMVERDIYEVA**
*Bakı Dövlət Universitetinin dosenti*
**naza-52@mail.ru**

# GƏNC NƏSİLDƏ DÜNYAGÖRÜŞÜN FORMALAŞDIRILMASI YOLLARI

*Məqalədə dünyagörüşünün mahiyyəti, psixoloji mexanizmi, formalaşması yolları və vasitələri, ayrı-ayrı yaş dövrlərində xüsusiyyətləri, bu sahədə dinin rolu kimi məsələlər nəzərdən keçirilir. Təhsil sisteminin dünya təhsilinə inteqrasiyası şəraitində gənclərin elmlərə, texnologiyalara dərindən yiyələnmələrinə, bilikli yaradıcı, dünyagörüşlü şəxsiyyətlər kimi yetişmələrinə, həm də ahəngdar şəxsiyyətlər kimi yetişmələrinə təsir edən amillərdən bəhs edilir.*

*Açar sözlər*: dünyagörüşü, onun formalaşması mexanizmi, yolları və vasitələri, elmi və dini dünyagörüşü.

*Giriş*. Uşaq və gənclərin ahəngdar şəxsiyyətlər kimi yetişməsində digər tərbiyə sahələri ilə yanaşı onlarda dünyagörüşünün formalaşması xüsusi yer tutur. Böyüyən nəslin təhsili, tərbiyəsi, insanlara və həyata münasibəti bundan çox asılıdır. Bəzən təlim prosesində – ayrı-ayrı fənlərin tədrisində konkret faktların, məlumatların öyrədilməsinə çox yer verilir. Lakin onların ümumiləşdirilməsinə, nəticələr çıxarılmasına, uşaq və gənclərin öz fikir və mülahizələrini bildirmələrinə lazımi diqqət yetirilmir. Bu da, öz növbəsində, uşaq və gənxlərdə təbiətə, cəmiyyətə, insana münasibətdə ümumi baxışların, dünyagörüşün formalaşmasına mane olur.

Hazırda təhsil sisteminin dünya təhsilinə inteqrasiyası şəraitində gənclərin elmlərə, texnologiyalara dərindən yiyələnmələrinə, bilikli yaradıcı şəxsiyyətlər kimi yetişmələrinə ehtiyac daha da artır. «Təhsil haqqında» Azərbaycan Respublikasının qanununda dərin biliklərə yiyələnən, geniş dünyagörüşünə malik olan, müasir təfəkkürlü vətəndaş və şəxsiyyətlər yetişdirmək təhsilin əsas məqsədi kimi müəyyən edilmişdir. Təhsil sisteminin bütün pillə və səviyyələrində bu məsələ diqqət mərkəzində durmalıdır. Çünki dünyagörüşü fəlsəfi, elmi, sosial-siyasi, əxlaqi, estetik baxış və əqidələrin sistemi kimi gənclərin şüurunda dünyanın düzgün ümumi mənzərəsini yaratmağa, onların həyat və fəaliyyətinin istiqamətini müəyyələşdirməyə imkan verir.

Məqalədə dünyagörüşünün mahiyyəti, gənc nəsildə onun formalaşdırılması prosesi, yolları və vasitələri nəzərdən keçirilir.

Dünyagörüşü insanın həyata baxışları sistemidir. Bu sistemdə ictimai şüurun bütün formaları – elm, fəlsəfə, əxlaq, siyasət, hüquq, din, incəsənət və s. əks olunur. Ona görə də dünyagörüşü anlayışını bir qədər dəqiq şəkildə belə ifadə etmək olar: dünyagörüşü insanın həyata elmi, fəlsəfi, hüquqi, əxlaqi, dini, siyasi, estetik baxışlarının ümumiləşmiş sistemidir.

Dünyagörüşü elmi və qeyri-elmi ola bilər [4, s.461]. *Elmi dünyagörüşü* təbiətə, cəmiyyətə və insan təfəkkürünə elmi baxışların sistemi kimi başa düşülür. Onun əsasını elmi-dialektik ideya və baxışlar təşkil edir. Bu ideya və baxışlar ictimai və fərdi dünyagörüşünün əsasını təşkil edir. *İctimai dünyagörüşü* cəmiyyətdə bərqərar olan elmi, fəlsəfi, siyasi, etik və estetik baxışları əks etdirir. *Fərdi dünyagörüşü* isə ayrı-ayrı şəxsiyyətlərin həyata baxışları sistemidir.

Dünyagörüşü insanın davranış və fəaliyyətinin tənzimləyicisi, motivi kimi çıxış edir. O, şəxsiyyətin ümumi istiqamətini, həyat qayəsini müəyyən edir, xarakteri möhkəmlədir. Bitkin və sistemli dünyagörüşü insanın şəxsiyyət kimi formalaşmasının mühüm göstəricisidir. Belə insan möhkəm həyat mövqeyi və məqsədyönlülüyü ilə seçilir.

Dünyagörüşün *keyfiyyəti* onun elmiliyi, tamlığı, sistemliliyi, ümumiliyi və davranışa təsiri ilə müəyyən olunur. İnsanın ideya və baxışları onun davranış və fəaliyyətində özünü göstərdikdə, şəxsiyyətin həyat prinsiplərinə çevrildikdə dünyagörüşü daha dolğun və təsirli olur.

Dünyagörüşün göstərilən müsbət keyfiyyətləri insanda vəhdət təşkil etdikdə *şəxsiyyətin inamına,*

*əqidəsinə çevrilir*. Əqidə - insanın müəyyən baxış və ideyalara, həyat prinsiplərinə möhkəm inamı, etiqadıdır. Əqidəli adamın ideyaları onun hissləri və iradəsi ilə qovuşur; o, dərin inam bəslədiyi ideya və baxışlara uyğun hərəkət edir, onların naminə hər cür çətinliyə qatlaşır. Belə adamlar ətrafdakıların hörmətini qazanırlar. Əksinə, tez-tez ideya və mövqeyini dəyişən, sözləri ilə əməlləri düz gəlməyən, ideya və baxışlarını qarın və vəzifə üçün qurban verən adamlar el arasında hörmətdən düşürlər.

Dünyagörüşün formalaşması prosesi müxtəlif *amillərin* təsiri ilə baş verir. Bu amillər sırasında sosial mühit, ailə həyatı, cəmiyyətdə qərarlaşmış ideya və baxışlar, dövlətin siyasəti, təlim və tərbiyə, kütləvi informasiya vasitələri, insanın yoldaşlıq mühiti, oxuduğu kitablar, baxdığı filmlər və s. mühüm yer tutur.

Dünyagörüşü *quruluşuna* görə mürəkkəbdir. Onun tərkibi *zehni, emosional və iradi komponentlərdən* ibarətdir.

*Zehni komponent* varlığın insan şüurunda inikası ilə bağlıdır: burada hissi və məntiqi idrak birləşir. İnsan mücərrəd təfəkkürün köməyi ilə ümumiləşdirmələr aparır, maddi aləmin cisim və hadisələri arasındakı səbəb-nəticə asılılıqlarını, qanunauyğun əlaqələri dərk edir və bu əsasda dünyaya ümumi baxışlar sistemi formalaşır.

İnsanın bilik və baxışları o zaman şəxsi mövqeyə, əqidəyə çevrilir ki, insan bu ideyaları daxilən hiss etsin, ondan həyəcanlansın. *Emosional həssaslıq*, müqəddəs ideyalardan doğan sevinc, təəccüb, qürür hissləri dünyagörüşün formalaşmasında mühüm rol oynayır.

Bu prosesdə insanın *iradəsi* də iştirak edir. İnsan ideyalara inandıqda onları praktik fəaliyyətə, öz davranışına tətbiq etməyə psixoloji cəhətdən hazır olur. Bu sahədə iradənin rolu böyükdür. Məhz iradənin köməyi ilə dünyagörüşü insanın ünsiyyət və münasibətlərində, hərəkət və davranışında özünü göstərir. İnsanın davranış və münasibət sistemi dünyagörüşün iradi komponentini təşkil edir. İradi hərəkət həmişə məqsədyönlü olur. Məqsədin qoyuluşu və həyata keçirilməsi həm də insanın baxış, əqidə və ideallarından asılıdır. Şəxsiyyətin iradi keyfiyyətlərinə nüfuz edən dünyagörüşü insanın davranış və rəftarını istiqamətləndirir.

Dünyagörüşün *psixoloji komponentlərindən* çıxış edərək, müəllim onun formalaşması prosesində bu komponentlərə əsaslanmalı, elə təsir vasitə və priyomları seçib tətbiq etməlidir ki, onların köməyi ilə şagirdlərin zehni, hissi və iradi qüvvələrini səfərbərliyə ala bilsin.

Dünyagörüşün formalaşması bir neçə *mərhələdən* keçir:

a) dünyagörüşü ideyalarının əsas ünsürlərinin mənimsənilməsi (elmi biliklərin dərk edilməsi);

b) öyrənilən biliklərə, davranış normalarına münasibətin formalaşdırılması (onların həqiqiliyinə inam yaradılması);

c) şəxsi baxış və əqidənin formalaşdırılması;

ç) ideya və baxışların gündəlik davranış və fəaliyyətdə rəhbər tutulması [6, s.172].

İnsanın davranış və hərəkətləri onun inam və əqidəsinin düzlüyü və möhkəmliyinin göstəricisi, meyarı kimi çıxış edir.

Müəllim göstərilən psixoloji əsaslardan çıxış edərək, müvafiq mərhələlər üzrə tədricən şagirdlərdə dünyagörüşün formalaşmasına çalışmalıdır.

Dünyagörüşün əsasını elmi biliklər təşkil etdiyindən onun formalaşmasının başlıca yolu *təlim prosesi* ilə bağlıdır. Təlim prosesində şagirdlər təbiət, cəmiyyət və insan təfəkkürü ilə bağlı elmi biliklərə, ümumiləşmiş anlayışlara, baxışlara yiyələnirlər. Bu işdə bütün fənlərin imkanlarından istifadə edilməlidir. Doğrudur, ayrılıqda götürülmüş heç bir fənn bu mühüm vəzifəni müstəqil həll edə bilməz, lakin hər bir fənn bu sahədə müəyyən imkanlara malikdir.

*Təbiyyat-riyaziyyat silsilə fənlərinin* (təbiətşünaslıq, biologiya, kimya, riyaziyyat, fizika, fiziki coğrafiya) tədrisində dünyanın təbii-elmi mənzərəsi yaradılır, təbiətə elmi baxışların formalaşmasının əsası qoyulur: dünyanın maddiliyi, təbiət hadisələrinin qanunauyğunluqları, qarşılıqlı əlaqəsi, bir-birini şərtləndirməsi, canlılar aləminin təkamülü, növlərin dəyişkənliyi və s. belə ümumiləşmiş baxışlardır.

*İctimai-humanitar elmlərin* əsasları ilə bağlı fənlərin tədrisi (tarix, dil-ədəbiyyat, insan və cəmiyyət, iqtisadi coğrafiya və s.) cəmiyyətə dialektik baxışların yaranmasına kömək göstərir: bir ictimai-iqtisadi quruluşdan digərinə keçidin şərtləri və səbəbləri, ictimai inkişafın hərəkətverici qüvvələri, tarixdə xalqın həlledici rolu və s. Ana dili və ədəbiyyat, təsviri incəsənət, musiqi və nəğmə fənləri məktəblilərin əxlaqi-estetik baxışlarını, zövqünü formalaşdırmaq baxımından mühüm əhəmiyyət

kəsb edir. K.D.Uşinski ana dilinin tərbiyəvi rolundan bəhs edərək yazırdı ki, *Ana dili* uşağa təbiəti izah edir – onu bu cür heç bir təbiətşünas izah edə bilməz; o, uşağı insanlarla, cəmiyyətlə və onun tarixi ilə tanış edir - bu cür heç bir tarixçi tanış edə bilməz; nəhayət, o elə məntiqi anlayışlar və fəlsəfi baxışlar verir ki, bunu heç bir filosof verə bilməz. Dildə xalqın mənəvi aləmi, onun həyata, təbiətə, tarixi hadisələrə baxışları, ideya və görüşləri, hissləri ifadə olunur.

Ayrı-ayrı fənlərdə olan dünyagörüşü imkanları öz-özünə reallaşmır. Bunun üçün *təlimi xüsusi istiqamətdə təşkil etmək*, dünyagörüşün formalaşması istiqamətində müvafiq metod və vasitələrdən düzgün istifadə etmək lazımdır. Təlim prosesində elmi dünyagörüşünün formalaşması ilə bağlı bir sıra *vəzifələri* həyata keçirmək lazımdır:

a) təbiət və cəmiyyət həyatının əsas fakt və qanunauyğunluqlarının şüurlu mənimsənilməsini təmin etmək; b) təbiət və cəmiyyət hadisələrinə maraq, onların mahiyyətinin dərk olunmasına tələbat aşılamaq; c) şagirdlərdə sosial-siyasi, əxlaqi, estetik baxışlar sistemi, əqidə və ideallar formalaşdırmaq; ç) dialektik təfəkkürün inkişafına kömək göstərmək.

Bu vəzifələrin həlli təbii-elmi və humanitar biliklərin dərindən mənimsədilməsindən, təbiətə və cəmiyyətə ümumiləşmiş baxış və münasibətlərin yaradılmasından, onların inama və əqidəyə çevrilməsindən çox asılıdır.

Dünyagörüşü tərbiyəsi qarşısında duran vəzifələrin həyata keçirilməsi onun optimal *məzmununun* müəyyən edilməsi ilə sıx bağlıdır. Bunun üçün hər bir fənn üzrə başlıca anlayışlar, ideyalar seçilməli, ən mühüm dünyagörüşü baxışları sistemə salınmalı, ayrı-ayrı sinif və bütöv təlim miqyasında bilik və ideyalar bir kompleks halında birləşdirilməlidir.

Təlim prosesində dünyagörüşü tərbiyəsində *ümumi anlayış və ideyaların* mənimsədilməsi böyük əhəmiyyət kəsb edir. Hər bir elm sahəsində, tədris fənnində belə ümumi anlayışlar vardır. Müəllim bu ideyaların mənimsədilməsi üçün faktları seçməli, onların ümumiləşdirilməsinə xüsusi diqqət yetirməlidir. Təlimdə hazır nəticələr vermək əvəzinə, faktlar üzərində şagirdləri düşündürmək, onları faktların təhlilinə, ümumiləşdirilməsinə cəlb etmək faydalıdır. Şagird elmi anlayışların, ideyaların mənimsənilməsində nə qədər fəallıq, müstəqillik göstərsə, onları konkret hallarla əlaqələndirə bilsə, anlayış və ideyalar bir o qədər şüurlu dərk edilər, şagirdin baxış və əqidəsinə çevrilər.

Dünyagörüşü tərbiyəsi müəllimin istifadə etdiyi *təlim vasitə və metodları* ilə sıx bağlıdır. Təlimdə şagirdləri fəallaşdıran, düşündürən, onların müstəqil fikrini oyadan metod və priyomlara daha geniş yer vermək lazımdır. Öyrənilən anlayış və ideyaları konkret həyati və zehni məsələlərin, *problemlərin həllinə* tətbiq etmək də faydalıdır. Müəllim təlim prosesində – dərsdə şagirdləri belə məsələlərin həllinə geniş cəlb etməli, onlarda dialektik, tənqidi təfəkkürü inkişaf etdirmək qeydinə qalmalıdır. Bu məqsədlə evristik müsahibə, problem vəziyyət yaratmaq, düşündürücü suallar qoymaq səmərəlidir: "Fikrini sübut et", "Hansı fikri düzgün sayırsan?", "Hansı fikirlə razı deyilsən? Nə üçün?" və s. Təlimdə problemlilik, yaradıcı axtarışlar, elmi diskussiyalar dünyagörüşü tərbiyəsi və ideya inamı baxımından əhəmiyyətlidir.

Uşaq və gənclərdə yeni pedaqoji təfəkkürün inkişafı müasir dərsin əsas fərqləndirici cəhəti kimi səciyyələndirilir. Psixoloqlar məktəbi yaddaş (hafizə) məktəbindən ağıl (təfəkkür) məktəbinə çevirməyin zəruriliyini qeyd edirlər. Yeni pedaqoji təfəkkürün ana xəttini şagirdin bir şəxsiyyət kimi inkişafı və tərbiyəsi təşkil etməlidir [2, s.29].

Şagirdlərin öz biliklərini müxtəlif zehni və həyati məsələlərin həllinə tətbiq etmələri onlarda həmin biliklərə inamın yaranmasına, müstəqil mühakimə yürütmələrinə, real həyati faktları ümumi qanunlar baxımından təhlil etmək bacarığının yaranmasına gətirib çıxarır.

Təlim prosesində dünyagörüşü tərbiyəsinin mühüm bir amili *fənlərarası inteqrasiyadır*. Təbii-riyazi elmlərin obyekti təbiətdir. Ayrı-ayrı elmlər bu ümumi obyektin bir cəhətini öyrənir. Həmin elmlərin əsaslarını əks etdirən tədris fənləri də ayrılıqda bu və ya digər təbiət hadisəsini öyrədir və deməli bütövlükdə təbiətin elmi mənzərəsi haqqında bitkin təsəvvürlər, sistemli anlayışlar verə bilməz. Ona görə də dünyagörüşün bir fənn çərçivəsində həyata keçirilməsi mümkün deyildir; yalnız fənlərin inteqrasiya sayəsində təbiətin və cəmiyyətin ümumi mənzərəsini yaratmaq, ümumi qanunauyğunluqları mənimsətmək olar. Canlı təbiətə dair ümumiləşmiş biliklər verən xüsusi tədris fənni (ümumi biologiya) olduğu halda, cansız təbiətə dair belə bir ümumiləşdirilmiş kurs yoxdur. Buna görə də müvafiq ümumiləşdirməni müxtəlif təbii-elmi biliklərin tədrisində (fizika, astronomiya, fizi-

ki coğrafiya, qeyri-üzvi kimya və b.) yaratmaq lazımdır.

Fənlərarası əlaqə həm ayrı-ayrı hadisələr və proseslər səviyyəsində, həm də təbiət və cəmiyyətin inkişafının ümumi qanunları – fəlsəfi qanun və kateqoriyalar səviyyəsində həyata keçirilə bilər. Hər bir məktəb fənni *dialektikanın qanunları və fəlsəfi kateqoriyalarla bağlı sistemli təsəvvürlər aşılamaqda* öz töhfəsini verməlidir. Təbiət və cəmiyyətin istənilən hadisənin öyrənilməsində şagirdlər bu qanun və kateqoriyaların xüsusi təzahürləri ilə rastlaşırlar: səbəb-nəticə asılılıqları, zərurət və təsadüf, materiyanın hərəkəti və dəyişməsi, əksliklərin vəhdəti və mübarizəsi, kəmiyyət dəyişmələrinin keyfiyyət halına keçməsi və i.a. Müəllimlərin vəzifəsi ümumi qanunların konkret təzahürləri haqda bilikləri bitkin sistem halında birləşdirməkdən, şagirdlərin şüurunda dünyanın bütöv mənzərəsini yaratmaqdan ibarətdir.

Təlim-tərbiyə prosesində şagirdlərin dünyagörüşü ideyalarına şəxsi *inam və əqidə bağlaması* da diqqət mərkəzində durmalıdır. *İdeya və baxışlar insan üçün şəxsi məna kəsb etdikdə*, onun həyati təcrübə və münasibətlərində ifadə olunduqda inama, şəxsi mövqeyə çevrilir, şəxsiyyətin ümumi istiqamətini müəyyən edir. Buna görə də yeniyetmə və gənclərin *şüuruna, hissinə, iradəsinə təsir* göstərməklə yanaşı, onların sosial əhəmiyyətli şəxsi davranış, *fəaliyyət və münasibət təcrübəsini təşkil etmək* də vacibdir. Bu sahədə çoxcəhətli sinifdənxaric işlər, ictimai-faydalı əmək, ictimai-siyasi fəaliyyət mühüm rol oynayır.

Dünyagörüşü tərbiyəsində *şagirdlərin yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması* böyük əhəmiyyət kəsb edir. Dünyagörüşü tərbiyəsi müxtəlif yaş dövrlərində, müxtəlif məzmunda aparılır. Hər yaş dövründə uşaqların dərketmə imkanları, təcrübə və tərbiyə səviyyəsi eyni deyildir. Bu hal tərbiyənin məzmun, forma və metodlarının seçilməsində nəzərə alınmalıdır.

*Kiçik məktəblilər* təlim prosesində təbiət və cəmiyyət həyatı haqqında sadə təsəvvürlərə, anlayışlara yiyələnirlər. Dünyagörüşü ideyalarını hazır vermək yox, məktəbliləri fəal zehni işə cəlb etməklə mənimsətmək lazımdır. Uşaqlara müşahidələr aparmağı, müqayisələr etməyi, hadisələr arasında səbəb-nəticə əlaqələrini tapmağı, sadə ümumiləşdirmələr etməyi və nəticələr çıxarmağı öyrətmək vacibdir.

*Yeniyetmə yaşında* təbiət və cəmiyyət həyatına maraq artır. Bu yaşda şagirdlər ətraf aləm haqqında nisbətən geniş biliklər alır, hadisələrin mahiyyətini dərk edirlər. Humanitar və təbiyyat fənlərinin öyrənilməsi onlarda təbiətə və cəmiyyətə elmi baxışların yaranmasına kömək göstərir. Yeniyetmələr özünütəsdiqə, həyatda öz yerini müəyyənləşdirməyə və əxlaqi məsələlərə böyük maraq göstərirlər. Lakin onların bir çoxunun mühakimə və baxışları qeyri-sabitliyi ilə fərqlənir. Buna görə də yeniyetmələrdə düzgün ideya və baxışları formalaşdırmaq, *hadisələrə, adamlara, öz davranış və rəftarına obyektiv qiymət verməyi* öyrətmək lazımdır.

*İlk gənclik yaşında* məktəblilər fiziki və mənəvi yetkinliyə çatır, elmi dünyagörüşü ideyalarına dolğun yiyələnməyə hazır olurlar. Mücərrəd və tənqidi təfəkkürün inkişafı, varlığa idraki münasibət, təbiət və cəmiyyət hadisələrinə dərin maraq, hər şeyin mahiyyətini dərk etmək tələbatı ümumiləşmiş ideya və baxışların, etik və estetik normaların dərindən mənimsənilməsi üçün əlverişli zəmin təşkil edir. Onlar bu ideya və normaları öz şəxsi təcrübələri ilə əlaqələndirir, davranış və rəftarlarında onları tətbiq etməyə, bu yolla özünüdərk və özünütəsdiq tələbatlarını ödəməyə çalışırlar. Bu yaşda gənclərin sosial, ideya-mənəvi yetkinliyi onların zehni və mənəvi inkişafından bir qədər geri qalır. Bu hal gənclərin bir qismində inamsızlıq, passivlik, siyasi biganəlik yaradır. Məktəb bu cəhətləri nəzərə alıb, təlim-tərbiyə işində gənclərin dünyagörüşü ideya və baxışlarını şüurlu dərk etmələrinə, hadisələrə düzgün qiymət vermələrinə və öz şəxsi təcrübələrini, sosial əlaqə və münasibətlərini genişləndirməyə istiqamətləndirməlidir.

***Elmi və dini dünyagörüşü***. Elmi və dini dünyagörüşü ictimai şüurun formaları olub, müəyyən baxışların sistemi kimi formalaşmışdır. Din ümumbəşəri dəyərlərin, əxlaq normalarının təbliğində, insanların mənəvi tərbiyəsində mühüm rol oynamış və oynamaqdadır. Azərbaycanda hələ eramızdan əvvəl meydana çıxan *zərdüşt dini* insanları xeyrə, düzlüyə çağırmışdır. Bu dinin əsaslarını özündə cəmləyən "Avesta"da ("Qanun" kitabında) xeyrlə şərin mübarizəsi mühüm yer tutur. İnsan öz fikir və davranışında şəri yox, xeyri seçməlidir. Bu halda o, düz yolla gedər, xoşbəxt olar. Hər kəs üç keyfiyyəti özündə cəmləməlidir: xoş fikir, xoş söz və xoş əməl. Hər işi təmiz fikirlə və təmiz əllə görmək lazımdır.

Sonrakı dövrdə dünyanın bir çox ölkəsində, o cümlədən Azərbaycanda yayılan *islam dini* də ailənin və cəmiyyətin mənəvi dayaqlarının möhkəmlənməsində, insanların mənəvi saflaşmasında mühüm rol oynamışdır. İslam dini elmi, düzlüyü təbliğ edir. "Quran"da və Məhəmməd peyğəmbərin (s.) hədislərində elmə, biliyə, saf əxlaqa yüksək qiymət verilir. "Ən yaxşı adamlar bilikli adamlardır, onların da ən yaxşıları mərhəmətli olanlardır", "Mərhəmətli alim - nuru aləmə işıq saçan ulduza bənzər", "İnsanın dini onun ağlıdır, ağlı olmayanın dini də yoxdur", "Düzgün olun, çünki düzgünlük cənnətə açılan qapılardan biridir", "Yalan, tamahkarlıq, acgözlük daima yoxsulluq əlamətidir" və s.

Tarix boyu dinə birmənalı münasibət olmamışdır; dinə mütərəqqi və mürtəce qüvvələr müxtəlif baxımdan yanaşmışlar. *Mütərəqqi qüvvələr* dinin sosial-mənəvi mahiyyətini düzgün qiymətləndirərək, ondan insanların və cəmiyyətin saflaşması, ailənin mənəvi dayaqlarının möhkəmləndirilməsi məqsədi ilə istifadə etmişlər. *Mürtəce qüvvələr* isə dini fanatizmi və mövhumatı təbliğ edərək, dindən xalqı cəhalətdə saxlamaq və öz şəxsi mənafelərini təmin etmək üçün istifadə etmişlər. Vaxtilə görkəmli yazıçı və mütəfəkkirlərimizin (M.F.Axundzadə, M.Ə.Sabir, S.Ə.Şirvani, Ə.B.Haqverdiyev və b.) öz əsərlərində ifşa etdikləri fırıldaqçı, savadsız, tamahkar, ikiüzlü axund, qazi, molla, seyid və dərvişlər dinə münasibətdə məhz belə mövqe tutmuşlar. Dinə belə ikili münasibət xalq yaradıcılığında da öz əksini tapmışdır [3, s.32-33].

Dünyagörüşü tərbiyəsində *dinə düzgün münasibət formalaşdırmaq*, həqiqi dinlə, uydurma-mistik fikirləri təbliğ edən dini fanatizmi, mövhumatı fərqləndirmək lazımdır. Uzun müddət Sovet kommunist rejimi dövründə elmi-ateizm təbliğatının təsiri ilə dinə yanlış münasibət bəslənmiş, xalqı dindən uzaqlaşdırmağa səy göstərilmişdir. Lakin dini baxışları xalqın şüurundan çıxarmağa müvəffəq ola bilməmişlər. Hazırda dinlə yox, dini fanatizmlə, xürafatla mübarizə aparmaq tərbiyə işində diqqət mərkəzində durmalıdır. Belə bir mübarizə elmi dünyagörüşünün formalaşmasının mühüm tərkib hissəsini təşkil edir.

Elmi dünyagörüşü dini inkar etmir, ona zidd mövqe tutmur. O, dünyəvilik mövqeyini müdafiə edir. *Dünyəvilik* isə dinsizlik demək deyildir; insan dinə hörmət etməli, eyni zamanda bəşəri sivilizasiyaya yiyələnməli, dünyanın inkişaf qanunlarını öyrənməlidir. *Din hər kəsin vicdan işidir.* Onu zorla qəbul etdirmək olmaz; hər kəs ona öz yolu ilə gəlib çatır. Din təhsilə, siyasətə, dövlət işlərinə qarışmamalı, maddi mənfəət güdməkdən uzaq olmalı, siyasətə alət edilməməlidir. M.K.Atatürkün ifadəsi ilə desək, din vicdanlardakı yüksək və müqəddəs yerini qorumalıdır.

Elmi dünyagörüşünün formalaşması insanın elmi biliklərə yiyələnməsindən, əqli tərbiyədən başlayır. *Əqli tərbiyə* dedikdə, insanın elmi biliklərə, zehni qabiliyyətlərə yiyələnməsi, yaradıcı düşünmə bacarığının inkişafına yönələn təlim-tərbiyə prosesi və onun nəticəsi başa düşülür.

Hazırda cəmiyyətdə elmi-texniki tərəqqinin sürətlə inkişaf etdiyi, əməkdə zehni işin rolunun xeyli artdığı bir dövrdə gənc nəslin əqli təhsil və tərbiyəsinə böyük tələblər verilir. Müasir istehsalatda, elm və mədəniyyətin müxtəlif sahələrində yüksək səviyyədə işləmək, yeni texnika və texnologiyalardan baş açmaq üçün dərin bilik, müstəqil düşünmə bacarığı, yaradıcı təfəkkür tələb olunur. Bu isə, öz növbəsində, böyüyən nəslin ümumtəhsil və intellektual səviyyəsini yüksəltməyi nəzərdə tutur [5, s.282].

Əqli tərbiyə qarşısında bir sıra *vəzifələr* durur:

a) insanı bilik, bacarıq və vərdişlərlə silahlandırmaq;

b) təlim əməyi bacarıqları və zehni əmək mədəniyyəti formalaşdırmaq;

c) zehni qabiliyyətləri, yaradıcı təfəkkürü, psixi prosesləri inkişaf etdirmək;

ç) yüksək ideya-mənəvi keyfiyyətlər, nəcib hisslər aşılamaq, elmi dünyagörüşünün formalaşmasına kömək göstərmək.

Bu vəzifələrin həlli üçün müxtəlif *yol və vasitələrdən* istifadə edilir. Şagirdlərin əqli təhsili və tərbiyəsi bir *çox amillərin* – təlim, tərbiyə, sosial mühit, ədəbiyyat və incəsənət, kütləvi informasiya vasitələri, müasir kompüter texnikası, internet sistemi və s. kompleks təsiri altında həyata keçirilir. Bu vasitələr içərisində məktəbdə *təlim prosesi* mühüm yer tutur.

Məktəbdə əqli tərbiyə üçün *iki yoldan* - təlim prosesindən və sinifdənxaric tədbirlərdən istifadə olunur. ***Təlim prosesi*** əqli tərbiyənin başlıca vasitəsidir. Müxtəlif fənlərdən keçilən dərslərdə şagirdlər elmlərin əsaslarına dair biliklərə, zəruri bacarıq və vərdişlərə yiyələnirlər. Bacarıq və vərdişlər xüsusi və ümumi olmaqla iki qrupa bölünür. *Xüsusi bacarıq və vərdişlər* ayrı-ayrı fənlərdə tətbiq olu-

nan, hər hansı qayda ilə bağlı olan bacarıq və vərdişlərdir. Məsələn, qrammatikadan müxtəlif təhlillər (fonetik, leksik, qrammatik) aparılması, riyaziyyatdan məsələ və misal həlli, coğrafiyadan qlobus, kompas və xəritə üzrə iş, biologiyadan bitki becərmək, heyvanlara qulluq etmək; kimyadan təcrübələr aparmaq və s. xüsusi bacarıqlara aiddir. *Ümumi bacarıq və vərdişlər* isə müxtəlif fənlərdə tətbiq olunur. Buraya kitab üzərində müstəqil iş, oxu və yazı vərdişləri, öz fikrini ifadə etmək, planlaşdırma, özünənəzarət və özünüyoxlama bacarıq və vərdişləri daxildir. Belə ümumi bacarıq və vərdişlərə yiyələnmək əsasında şagirdlərdə "öyrənmə bacarığı" formalaşır.

Müəllim təlim prosesində xüsusi bacarıq və vərdişlərlə yanaşı, ümumi bacarıq və vərdişlərin də formalaşması qeydinə qalmalıdır. Mənimsəmənin səmərəsi şagirdlərin bu bacarıqlara nə dərəcədə yiyələnmələrindən asılıdır. Belə bacarıqlar isə öz-özünə yaranmır. Bunun üçün təlimi xüsusi istiqamətləndirmək lazımdır. Müəllim dərslərdə şagirdləri kitab üzərində müstəqil işə cəlb etməli, onun səmərəli priyomlarını öyrətmək qeydinə qalmalıdır. Hələ ibtidai siniflərdə izahlı qiraət yolu ilə *mətni məntiqi hissələrə bölmək, hər hissədə əsas fikri tapmaq, plan tərtib etmək* və plan üzrə mətni *yığcam danışmaq* bacarıqları aşılanmalıdır. Bu iş müxtəlif fənlərdə və siniflərdə davam etdirilməlidir. Sistemli aparılan belə iş nəticəsində şagirdlər təlimdə müstəqil işləmək, gücəuyğun materialları sərbəst öyrənmək bacarıqlarına yiyələnirlər.

Şagirdlərin müstəqil təlim əməyi bacarıqları sırasında *zehni bacarıqların*, təfəkkür əməliyyatlarının formalaşması mühüm yer tutur. Zehni iş bacarıqları dedikdə, şagirdin zehni fəaliyyət priyomlarının sistemi başa düşülür. Buraya diqqətlə işləmək, təfəkkür əməliyyatlarına (təhlil-tərkib, müqayisə, təsnifetmə, sistemləşdirmə və ümumiləşdirmə), hafizə priyomlarına yiyələnmək, müşahidəçilik bacarıqları və s. daxildir. Müəllim zehni iş bacarıqlarına təlimdə geniş yer verməklə şagirdlərin müstəqil düşünmə bacarığının inkişafına nail ola bilir [7, s.391]. Bu məqsədlə *inkişafetdirici təlim vəziyyətinin (situasiyasının) yaradılması* mühüm şərtdir. Müəllim şagirdləri zehni və həyati problemlərin həllinə, tədqiqatçılıq fəaliyyətinə, evristik müsahibəyə, diskussiyalara, düşündürücü sual və tapşırıqların həllinə cəlb etməklə onların zehni inkişafını, müstəqil düşünmə bacarığının formalaşmasını stimullaşdıra bilər. Şagirdlərə verilən tapşırıqların yaradıcı xarakterdə olması da bu işdə mühüm əhəmiyyətə malikdir. Təcrübəli müəllimlər bu məqsədlə zehni qabiliyyətlərin inkişafına kömək edən müxtəlif tipli tapşırıqlara (müqayisə, təhlil etmək, səbəb-nəticə asılılıqlarını tapmaq, ümumiləşdirmək, müşahidə edib nəticələr çıxarmaq və s.) geniş yer verirlər.

Şagirdin təlim əməyi bacarıqları ən ümumi bacarıqları - *təlim əməyi mədəniyyətini* də özündə birləşdirir. Təlim əməyi mədəniyyəti şagirdin zehni fəaliyyətinin keyfiyyətinin əsas göstəricisidir. Şagirdin təlim əməyi mədəniyyəti, ilk növbədə, təlim fəaliyyətinin elmi təşkili deməkdir. *Təlim fəaliyyəti* isə bir çox *komponentdən* ibarətdir: a) təlim fəaliyyətinin düzgün planlaşdırılması; b) fəaliyyətin düzgün təşkili, müstəqil işin səmərəli priyomlarının tətbiqi; c) özünənəzarət; ç) özünütəhlil və özünüqiymətləndirmə.

Zehni əməyin planlaşdırılması gündəlik rejimə və zehni əməyin ümumi qaydalarına əməl etməyi, qarşıda duran məqsəd və vəzifələrin dərk edilməsini, görüləcək işin planını tərtib etməyi nəzərdə tutur.

Təlim əməyinin təşkili işin icrası üçün lazım olan səmərəli priyomların seçilib tətbiq edilməsinə əsaslanır. Bu priyomlara, bir tərəfdən, *zehni iş priyomları*, digər tərəfdən isə *təlim əməyinin ümumi priyomları* (əsas fikri tapmaq, plan və icmal tərtibi, plan üzrə yığcam danışmaq, optimal tempdə oxumaq və yazmaq və s.) daxildir. Təlim əməyinin düzgün təşkili habelə ümumi iş qaydalarına, gigiyenik qaydalara əməl etməyi nəzərdə tutur.

Təlim əməyi mədəniyyətinin mühüm bir ünsürünü – *özünənəzarət, özünüyoxlama* təşkil edir. Şagirdləri özünənəzarət, özünüyoxlama priyomları ilə xüsusi tanış etmək lazımdır (nəticəni məqsədə görə, verilmiş cavaba görə, şərtə görə yoxlamaq, öz səhvlərini tapıb düzəltmək və s.). Təlim fəaliyyətinin elmi təşkili görülən işin *təhlili ilə* başa çatır. Bu zaman yol verilmiş səhvlər aşkar edilir, onların səbəbləri təhlil olunur, islahı yolları müəyyənləşdirilir.

Təlim əməyi bacarıqlarının formalaşdırılması *sinifdənxaric tədbirlərdə* də davam etdirilməlidir. Bu işin müvəffəqiyyəti onun ciddi sistemdə aparılmasından asılıdır. Təlim əməyi mədəniyyəti bütün mümkün vasitələrin (dərslər, sinifdənxaric tədbirlər, məktəb pedaqoji kollektivi, şagird təşkilatları, ailə, məktəb kitabxanası və s.) *əlbir fəaliyyətinə* əsaslanır. Yalnız bu şərtlə şagirdlərin təlim əməyinin

məhsuldarlığını artırmaq, təlimi tədricən özünütəhsillə qovuşdurmaq mümkündür.

***Nəticə***. Gənc nəslə aşılanan keyfiyyətlər içərisində dünyagörüşünün formalaşması başlıca yer tutur. O, insanın həyata, cəmiyyətə, təbiətə, insanlara, özünə münasibətinin əsasını təşkil edir, onun dünyaya, yaşam tərzinə, bu gününə və gələcəyinə baxışlarını müəyyənləşdirir. Dünyagörüşünün mühüm ünsürləri kimi insanın dünyaya baxışları, təsəvvürləri, ideya və prinsipləri çıxış edir; onların köməyi ilə insan dünyaya, insanlara münasibətini, həyatda öz yerini müəyyənləşdirməyə çalışır. Bu ideya və baxışlar düzgün formalaşmadıqda insan üçün böyük problemlər yaranar, öz istək və arzularını reallaşdıra bilməz.

Dünyagörüşün formalaşması mürəkkəb prosesdir: onun tərkibi intellektual, emosional və iradi komponentlərdən ibarətdir. Müəyyən ideyanın dünyagörüşü səviyyəsinə çatması üçün o, insanın ağlına, qəlbinə, iradi-fəaliyyət sahəsinə nüfuz etməlidir.

Akademik V.A.Suxomlinskinin sözləri ilə desək, dünyagörüşü əqidəsi o zaman şəxsiyyətin mənəvi sərvəti olur ki, ideya, fikir ürəyi əsir edir, hissləri oyadır; soyuq ürəkdə yüksək hisslər, arzular, ideallar ola bilməz. İnsan yetkinlik və gənclik illərində konkret faktlardan böyük dünyagörüşü həqiqətinə olan yolu keçməsə, onun düzgün elmi-materialist əqidəsi olmaz, o asanlıqla öz baxışlarını dəyişə bilər [8, s.131].

Dünyagörüşün, əqidənin formalaşmasının əsas rolu elmi biliklərdən keçir. Təlim prosesində dünyagörüşünün inkişafının başlıca vasitələrinə tədris materallarının şüurlu mənimsədilməsi, biliklərin sistemə salınması və ümumiləşdirilməsi, uşaq və gənclərin yaradıcı təfəkkürünün inkişafı, onlarda həyata, düzgün münasibətin əqidə və baxışların formalaşdırılması, fənlərarası əlaqələrin yaradılması, ünsiyyət prosesinin düzgün qurulması və s. daxildir. Bu məsələlərin həllində müəllim mühüm rol oynayır: o, dünyagörüşü ideyalarının, norma və baxışlarının daşıyıcısı, gənclərin mənəvi inkişafının tərbiyəçisidir.

## ƏDƏBİYYAT

1. Ağayev Ə., Talıbov İ., İsayev İ., Eminov A. Pedaqogika. B., Adiloğlu, 2010, 400 s.
2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: Psixopedaqogikaya giriş. B., ADPU, 2008, 480 s.
3. Həşimov Ə. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. B., "Maarif", 1970, 255 s.
4. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika (dərslik). B., "Ekoprint", 2021, 612 s.
5. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. (Dərslik). 2 cilddə, II c. B., Mütərcim, 2013, 548 s.
6. İsmixanov M. Pedaqogikanın əsasları. B., ADPU, 2013, 304 s.
7. Paşayev Ə., Rüstəmov F. Pedaqogika (yeni kurs). B., Nurlan, 2007, 464 s.
8. Suxomlinski V.A. Vətəndaşın doğulması. B., "Maarif", 1975, 362 s.

**МЕДЖИД ИСМИХАНОВ**
*Профессор Бакинского Государственнего Университета*

**НАЗАКАТ ИМАМВЕРДИЕВА**
*Доцент Бакинского Государственнего Университета*

## ПУТИ ФОРМИРОВАНИЯ МИРОВОЗЗРЕНИЯ У МОЛОДОГО ПОКОЛЕНИЯ

В статье рассматриваются вопросы сущности, психологического механизма мировоззрения, пути и средства ее формирования, особенности в разных возрастных периодах, а также роль религии в этой области. В статье также рассказывается о факторах, влияющих на глубокое овладение молодежью наукой и техникой в условиях интеграции системы образования в мировое образование, на их развитие как знающих, творческих, дальновидных личностей.

*Ключевые слова*: мировоззрение, механизм, пути и средства формирования мировоззрения, научное и религиозное мировоззрение.

**MAJİD İSMİKHANOV**
*Professor of Baku State University*

**NAZAKAT İMAMVERDİYEVA**
*associate professor of Baku State University*

**WAYS OF FORMING A WORLDVIEW IN THE YOUNGER GENERATION**

The article discusses the essence, the psychological mechanism of the worldview, the ways and means of its formation, especially in different age periods, as well as the role of religion in this area. The article also talks about the factors that influence the deep mastery of science and technology by young people in the context of the integration of the education system into world education, their development as knowledgeable, creative, far-sighted individuals.

*Keywords*: worldview, mechanism, ways and means of its formation of worldview, scientific and religious worldview.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 fevral 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.*
*Rəyçilər: p.e.d. Həsən Bayramov, t.e.d. Anar İsgəndərov.*